# National traditions and Azerbaijani culture

**Azer Mustafaev**
Doctor of philosophical sciences, professor, Institute of Philosophy and Sociology of ANAS, head of department, Azerbaijan.
E-mail: mustafayev.azer@gmail.com
https://orcid.org/0000-0002-0454-289X

**Abstract.** From a socio-philosophical point of view, the article examines national traditions as a rich cultural heritage of the Azerbaijani people. It is noted that the vitality of customs over the centuries depends on their stability, duration of development and frequent use. Traditions, like laws, appear over time and over time are replaced by new ones. However, there are traditions that turn into classic models, live and always manifest themselves in the way of life of people. As an important part of the way of life, the emergence and development of traditions and customs embodies social experience, labor methods and skills passed from generation to generation throughout history, norms and rules of human behavior in the family and everyday life. The author examines the meaning of the term "tradition", which broader than the concept of "custom", examines the philosophical nature of these concepts, shows that they are a factor characterizing the relationship of the present with the past, their connections, similarities and differences. The article examines traditions as a mechanism for the preservation and transmission of cultural values, one of the sources of the future state of society, emphasizes the universal character of traditions in traditional societies. Here, the influence of modern global transformations on our national traditions is noted, which are a means of preserving the uniqueness of our culture and cultural heritage.
**Keywords**: customs, traditions, culture, national unity, modernity, solidarity, Azerbaijanism.

http://dx.doi.org/10.29228/edu.241
**To cite this article:** Mustafaev A. (2020) *National traditions and Azerbaijani culture.* «Scientific works», Vol. 34, Issue I, pp. 8-14
**Article history:** Received — 28.02.2020; Accepted — 11.03.2020

# Milli adət-ənənələr və Azərbaycan mədəniyyəti

**Azər Mustafayev**
Professor, f.ü.e.d, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, şöbə müdiri.
Azərbaycan. E-mail: mustafayev.azer@gmail.com
https://orcid.org/0000-0002-0454-289X

**Annotasiya.** Məqalədə milli adət-ənənələr Azərbaycan xalqının zəngin mədəni irsi kimi sosial-fəlsəfi aspektdən araşdırılır. Qeyd edilir ki, adətlərin əsrlər boyu yaşaması onların sabitliyindən, uzun ömürlü olmasından və tez-tez təkrar edilməsindən asılıdır. Ənənələr də, qanunlar kimi, zaman ötdükcə yaranır, vaxtı keçəndə yeniləri ilə əvəz olunur. Lakin elə ənənələr olur ki, klassik nümunələrə dönür, yaşayır, insanların həyat tərzində həmişə özünü göstərir. Adət və ənənələrin yaranması və inkişafı həyat tərzinin

mühüm tərkib hissəsi olmaqla, tarix boyu nəsildən-nəslə keçən sosial təcrübə, əmək üsulları və vərdişləri, insanların ailə və məişətdəki davranış normalarını və qaydalarını özündə təcəssüm etdirir. Müəllif "ənənə" termininin "adət" anlayışından daha geniş məna kəsb etdiyini, onların fəlsəfi mahiyyətini araşdırır, indinin keçmişlə əlaqəsini səciyyələndirən amil olduqlarını, aralarındakı bağlılığı, ümumi və fərqli cəhətləri göstərir. Məqalədə ənənələr mədəni dəyərlərin qorunub saxlanması və ötürülməsi mexanizmi, sosiumun gələcək vəziyyətinin mənbələrindən biri olaraq tədqiq olunur, ənənəvi cəmiyyətlərdə adət-ənənələrin universal xarakter daşıdığı diqqətə çatdırılır. Burada müasir qlobal transformasiyaların milli adət-ənənələrimizə təsiri, onların isə mədəniyyətimizin özünəməxsusluğunu, mədəni irsimizi qoruyan bir vasitə olduğu qeyd olunur.

**Açar sözlər:** adətlər, ənənələr, mədəniyyət, milli birlik, müasirlik, həmrəylik, azərbaycançılıq.

http://dx.doi.org/10.29228/edu.241
**Məqaləyə istinad:** Mustafayev A. (2020) *Milli adət-ənənələr və Azərbaycan mədəniyyəti.* «Elmi əsərlər», № 1 (34), səh. 8-14
**Məqalə tarixçəsi:** göndərilib – 28.02.2020; qəbul edilib – 11.03.2020

## Giriş / *Introduction*

Milli adət-ənənələr mədəniyyətlərin spesifikliyini səciyyələndirən amillərdən biridir. Bu məna-da Azərbaycanın mədəni irsində əsas yer tutan milli adət-ənənələr əsrlər boyu formalaşmış, cilalanmış, zənginləşmiş, nəsillərdən-nəsillərə keçərək bu günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan xalqının mədəniyyətində milli adətlər, ənənələr, bayramlar, kodekslər, simvollar bir-birilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Onlar xalq həyatının inciləri olub, əsrlər boyu reallığın praktiki və mənəvi qavranılması nəticəsində yaranmışdır. Əslində, adət-ənənələr millətimizin mahiyyətinin təcəssümüdür. Azərbaycan xalqının ənənəvi mədəniyyətinə xalqın dünyagörüşü, təcrübəsi, əmək fəaliyyəti, sənəti, ailə münasibətləri, bilik və bacarığı, bədii yaradıcılığı aiddir. Bütün bunlar isə öz növbəsində Azərbaycan xalqının təsərrüfat fəaliyyəti, tərbiyəsi və təhsili ilə əlaqədardır. Bu dəyərlər ölkənin həyatının demokratikləşməsinə və humanistləşməsinə təsir edir, Azərbaycan mədəniyyətinin milli vəhdətinin əsası, sosial normaların ümumi sisteminin elementləri kimi çıxış edir. Adətlərin və ənənələrin ümumi əlamətləri aşağıdakılardır:

- varislik;
- təkrarolunma;
- nisbi möhkəmlik;
- emosionallıq.

## Əsas hissə / *Main Part*

Adət-ənənələr təsnifatlandırılarkən sosial şərtlənmə, fəaliyyət sferası və davamlılıq prinsip-lərinə görə fərqləndirilir. "Ənənə" anlayışı "adət" terminindən daha geniş məna kəsb edir. Adətlərin fərqli cəhəti onların olduqca möhkəm, sabit davranış qaydaları olmalarıdır. Ənənə adətlə müqayisədə insanların daha ümumi norma və prinsiplərini ifadə edir. Onlar əsas mövcud qaydaları və ideyaları əhatə edirlər. Adətlər konkret sosial münasibətlər olub, ictimai rəyə əsaslanan bu və ya digər hərəkətlərin həyata keçirilməsinin sabit üsuludur. Adətlərin fəaliyyət sferaları ailə və məişət sahələri olduğu halda, ənənələr daha çox maddi istehsal sahələrində, ictimai şüurun müəyyən formalarında - siyasətdə, fəlsəfədə, elmdə reallaşan proseslərdir. "Adətlər və ənənələr Azərbaycan xalqının zəngin mədəni irsidir. Adətlərin bir neçə nəsil boyu yaşaması da onların uzun ömürlü olmasından və tez-tez

təkrar edilməsindəndir. Ənənələr də qanunlar kimi, zaman ötdükcə yaranır, vaxtı keçəndə yeniləri ilə əvəz olunur. Lakin elə ənənələr də olur ki, klassik nümunələrə dönür, yaşayır, insanların həyat tərzində həmişə özünü göstərir. Ənənə və adətlərin yaranması və inkişafı həyat tərzinin mühüm tərkib hissəsi olmaq etibarilə, tarix boyu nəsildən-nəslə keçən sosial təcrübə, əmək üsulları və vərdişləri, insanların ailə və məişətdəki davranış normalarını və qaydalarını özündə təcəssüm etdirir.

Ənənə mədəni irsin saxlanılmasının bir formasıdır. ” [7,17-18] “Ənənə” termininin fəlsəfi mənası onunla müəyyənləşir ki, o, indinin keçmişlə əlaqəsini səciyyələndirir, onlar arasında bağlılıqdır. Ənənələr mədəni dəyərlərin qorunub saxlanılması və ötürülməsi mexanizmidir, sosiumun gələcək vəziyyətinin mənbələrindən biridir. Ənənəvi cəmiyyətlərdə, adət-ənənə universal xarakter daşıyır. İnnovasiya isə tarixən XIX əsr antropoloqlarının əsərlərində tədqiq olumuşdur. Onun yeni Avropa mədəniyyətinin Asiya və Afrika cəmiyyətinin həyati dayaqlarına tətbiqi nəticəsində, onların dağıdılması prosesini bildiyi üçün ifadə edirdilər.

Bu mənada akademik Ramiz Mehdiyevin “Dövlətçilik hissi və milli-mənəvi dəyərlər sistemi” məqaləsindəki bir fikri xüsusi əhəmiyyət kəsb edir: “Milli-fəlsəfi fikrin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün milli-mənəvi abidələrin, bədii ədəbiyyatın rolu, həqiqətən, böyükdür. Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin, heç olmasa, başqa ampluada, fövqəltarixi formalarda - fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır.

Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə, milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa, yaşadan və bir əmanət kimi yeni nəsillərə ötürən həqiqi böyük ziyalılar estafeti öz əllərinə almalı olurlar”.[4] Ənənə və innovasiya bəşər mədəniyyətinin və tarixinin müxtəlif qatları ilə qarşılıqlı münasibətdə ola bilər. Ənənə ibtidai icma mədəniyyətində əmələ gəlib və inkişaf edib. Sivilizasiyanın inkişafı üçün isə daimi innovasion mədəniyyətində əmələ gəlib və inkişaf edib. Patriarxal cəmiyyətdə dini sistemlər təşəkkül tapmışdır.

Milli adət-ənənələr müxtəlif funksiyalar daşıyaraq Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Milli adət-ənənələrimiz Azərbaycanda yaşayan bütün etnosların sərvəti olub, vahid mənəvi dəyərlərin formalaşması və inkişafını təmin edir. Onlar keçmişi, indini və gələcəyi bir-birinə bağlayan mənəvi vasitədir. Bir sözlə, milli adət-ənənələr mədəniyyətin mühüm atributlarından biri kimi, müasirliyi ilə fərqlənir və gələcəyə istiqamətlənmişdir. Belə məqamda milli adət-ənənələrin yenidən dəyərləndirilməsi zərurəti meydana çıxır. Bunun üçün aşağıdakı amillər əsas rol oynayır:

1. Vərdiş və adətlərin təhlilinin cəmiyyətin və insanların indiki yaşayış tərzinə nə dərəcədə uyğun olub-olmamasını aşkarlama.

2. Adət və ənənələri saf-çürük edərək onların tərəqqi və inkişafa müsbət və mənfi təsir göstərən cəhətlərini müəyyənləşdirmək.

3. Onların müsbət cəhətlərini daha da dolğunlaşdırmaq, mənfi və köhnə cəhətləri atmaq.

4. İslam dininin həyati və humanist dəyərlərini mövhumatdan təmizləmək. [8,111]

Bütün bunlar milli adət-ənənələrin müasirləşməsinin böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Milli adət-ənənələrin Azərbaycan mədəniyyətinin əsas atributlarından biri kimi, tərbiyəvi funksiyası sinkretik xarakter daşıyır, hər şeydən əvvəl varlığın üç əsas formasının - mədəniyyətin, cəmiyyətin və insanın vəhdətində ifadə olunur. Tərbiyə ictimai hadisə kimi, əsrlər boyu xalqımız tərəfindən həyata keçrilmişdir. Azərbaycanlıların milli-tərbiyəvi ənənələrinə aşağıdakılar daxildir:

- saflıq və dürüstlük;
- sadəlik və təvazökarlıq;
- mərhəmətlilik və xeyirxahlıq;
- tolerantlıq;
- böyüklərə hörmət, uşaqlara, qadınlara, gənclərə qayğı;
- qonaqpərvərlik;
- qarşılıqlı yardım;

- borca sadiqlik;
- vətənə, yurda, xalqa hörmət və bağlılıq.

Azərbaycan mədəniyyətinin milliliyi, özünəməxsusluğu adət-ənənələrlə bağlıdır. "...Azərbaycan mədəniyyətinin multikultural xarakterinə baxmayaraq, onun bənzərsizliyi, keyfiyyətcə müəyyənliyi, milli koloriti vardır. Azərbaycan mədəniyyətində məhz bu cəhətlərin formalaşması milli adət-ənənələrlə bağlı baş vermişdir" [6,58].

Azərbaycanda mədəni inkişafın qanunauyğunluqlarından biri mədəni yaradıcılıqda milli adət-ənənələrin rolunun artmasıdır. Əsrlər boyu xalqımızın çoxcəhətli fəaliyyətində mədəni dəyərlərin həcminin təbii artım prosesi sayəsində milli adət-ənənələrin əhəmiyyətinin artması prosesi həyata keçirilmişdir. Bu halda ictimai tərəqqinin sürətinin artmasını şərtləndirən sosial səbəblər də özünü göstərmişdir. Bu proseslər qarşılıqlı əlaqədə baş vermişdir: xalqın mədəniyyətin inkişafında rolu artdıqca onun üçün milli adət-ənənələrin əhəmiyyəti də böyük olur.

Milli adət-ənənələri aşağıdakı kimi təsnifatlandırmaq olar:

1. Dünyagörüş yönümlü adət-ənənələr. Buraya vətənpərvərlik, əmək, ekoloji, dini, kommunikativ, həyat tərzi adət-ənənələri daxildir.
2. Ailə, cinsi, peşə istiqamətli adət-ənənələr.

Azərbaycanlıların etnik psixologiyasında bərabərlik, ədalətlilik, müstəqillik, azadlıqsevərlik, dostluq, milli mühitə bağlılıq əsas yer tutur. Fəlsəfə elmləri doktoru, professor İ.Məmmədzadə yazır: "Azərbaycan tarixən müxtəlif etnosların yaşadıqları, fərqli adət-ənənələrin dinc yanaşı mövcud olduğu bir ölkədir. Hazırda o, çoxmədəniyyətli, sabitliyin tolerant dəyər prioritetlərinin üstünlük təşkil etdiyi məkan olaraq qalmaqdadır" [10, 190]. Beləliklə, Azərbaycanın milli adət-ənənələri ümumbəşəri mədəniyyətin dəyərli bir hissəsi kimi modernləşmə və müasirliklə qovuşaraq, qlobal transformasiyalar şəraitində də mədəni özünəməxsusluğun qorunub saxlanmasını təmin edir.

Qlobal mədəni məkana inteqrasiya zamanı Şərq dəyərləri Azərbaycanın milli adət-ənənələrindən keçir: " Xalq yalnız ruhuna yaxın qanunlara etibar edir, onları rəhbər tutur. Bunlar isə azərbaycançılıq fəlsəfəsinin əsas prinsiplərindən biri kimi çıxış edir" [3, 106]. Azərbaycanın milli adət-ənənələri artıq mədəniyyətin formalaşmasında əsas rol oynayır. Onlar özünəməxsusluq, mədəni irs anlayışları ilə sıx əlaqədardır.

Qlobal transformasiyalar şəraitində milli adət-ənənələrin mühafizəsi ən zəruri məsələlərdəndir: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" [1, 15]. Göründüyü kimi, Azərbaycan Respublikasının Əsas qanununda ölkənin hər bir vətəndaşından milli-mədəni irsin, o cümlədən adət-ənənələrin qorunması, onlara hörmətlə yanaşılması tələb olunur.

"Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nda "Mədəniyyət sərvətləri" haqqında deyilir: "Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər, tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir". [5] Bu dəyərlər isə dövlətimiz və cəmiyyətimiz tərəfindən qorunub saxlanır, inkişaf etdirilir, gələcək nəsillərə ötürülür.

XX əsrin sonlarında və XXI əsrin əvvəllərində bəşəriyyətin dünya mədəni inteqrasiya prosesinə daxil olması zamanı qlobal transformasiyanın təsiri altında bir tərəfdən bəzi milli adət-ənənələrin yox olması, dəyişməsi, yeniləşməsi, digər tərəfdən mədəniyyətlərin qarşılıqlı zənginləşməsi baş verir. Dünyanın yeni qlobal məkanında paralel və kəsişən milli adət-ənənələr yanaşı yaşaya bilər. Milli adət-ənənələr qlobal mədəni ənənələrə inteqrasiya prosesində onların innovasiyalarla qarşılıqlı əlaqəsi həlledici rol oynayır. Milli adət-ənənələr dil, din, tarixlə bağlı olan dəyərlərdir. Bütövlükdə Azərbaycan mədəniyyətinin unikallığı və ənənəviliyi innovasiyalara meyilliliyə, açıqlığa, tolerantlığa, nikbinliyə, dialoq mədəniyyətinə əsaslanır. Azərbaycan mədəniyyətinin ənənəvi dəyərləri şərəf və vicdanın, mənəvi və insani keyfiyyətlərin üst-üstə düşməsi, ümumbəşəri və milli həmrəyliyin vəhdət təşkil etməsilə fərqlənir. Həmrəyliyin mədəni, etik əsasa, insanların ümumi keçmişə, tarixə,

ahəngdarlıq və dialoq ideyalarına malik olduğunu, mədəniyyətin həmrəylik üçün zəmin yaratdığını göstərən İ.Məmmədzadə yazır: "Mədəniyyət ənənələrdir, dindir, normalardır. Onlar insanların qarşılıqlı münasibətlərində təcəssüm olunur. Onların bu spesifik cəhətləri dərhal, hamı tərəfindən qəbul olunmur. Buna görə də biz mədəniyyəti dialoq, qarşılıqlı əlaqə və qarşılıqlı anlaşmanı özündə əks etdirən amil kimi başa düşürük. Belə mədəniyyət ənənələrdə, digərlərlə münasibətdə ümumi, birgə həmrəylik həqiqətində təzahür edir" [10, s.96]. Bir sözlə, mədəniyyət insanın keçmiş, indi və gələcəklə dialoqudur. Bu dialoqda milli adət-ənənələr əsas yer tutur.

Adət-ənənələr Azərbaycan milli-mənəvi mədəniyyətinə təsir etdiyi kimi, o özü də bu dəyərlərə əsaslı şəkildə nüfuz edir. Milli adət-ənənələrimiz millətçilik və kosmopolitizm kimi ifratçılıqdan uzaqdır. Azərbaycanın adət-ənənələri milli və ümumbəşəri dəyərlərin vəhdətindən ibarətdir. Millilik ənənəviliklə, müasirlik, ümumbəşərilik isə qərbləşmə, avropalaşma ilə sıx bağlıdır.

Azərbaycan mədəniyyətinin strukturunda milli adət-ənənələrin mürəkkəb dialektik qarşılıqlı münasibətlərini fəlsəfi diskurs kontekstində araşdırmadan onu dərindən dərk etmək mümkün deyildir. İntellektual diskussiyalar və tədqiqatlar çərçivəsində ənənəvi dəyərlərin innovasion mədəniyyətə və təcrübəyə daxil olması prosesi baş verir. Müasir fəlsəfi ədəbiyyatda dəyərlər sistemində ənənəvilik və innovasiyalılığın dialektikası kifayət qədər tədqiq olunmamışdır. Milli adət-ənənələr sosial-mənəvi normaya çevrilməsə, xalqın dəyər yönümündə əhəmiyyətli yer tutmasa cəmiyyətdə heç bir institusional innovasiyalar meydana gələ bilməz.

Ənənəvi mədəniyyət ona yad olan innovasiyaları - Qərbin sosiallıq modelini, demokratiyanı, insan hüquqlarını, mənəviyyat formalarını qəbul etdikdə, bu onun zənginləşməsinə gətirib çıxara bilər.

İctimai inkişafın innovasion modellərində iqtisadi deyil, mədəni-dəyər amili həlledici rol oynayır. Azərbaycan cəmiyyətinin inkişafının innovasion modelinin əsas nüvəsini ruhi-mənəvi dəyərlər olan ənənəvi mədəniyyət təşkil edir. Azərbaycan etnosunun mənəvi dəyər sisteminin ontoloji əsasını milli adət-ənənələr təşkil edir. Mənəvi hisslərin inkişafı, həyatın mənəvi əsası azərbaycanlıların mənəvi varlığının zəruri zəminidir.

Qlobal transformasiya şəraitində sosial sistemlər arasında baş verən innovasiya mübadiləsi sistemin diferensiasiyası, inteqrasiyası və qarşılıqlı zənginləşməsinə gətirib çıxarır. Bəzən innovasion yeniləşmə bayrağı altında mədəni identikliyin baza əsaslarına - dilə, dinə, tarixə -mədəni müdaxilə münaqişəyə səbəb olur. İnnovasion texnologiyalara mədəniyyətin və identikliyin dağıdıcısı kimi baxmaq olmaz. Müasir cəmiyyət innovasion texnologiya vasitəsilə öz simasını dəyişir və texniki-texnoloji həyat tərzi ilə postindustrial cəmiyyətlə səciyyələnir. Ənənəvi dəyərlər innovasion çağırışlara müxtəlif cür təsir edir. Müasir qloballaşma şəraitində ənənələrə və innovasiyalara antitez kimi baxmaq olmaz. Çünki hər hansı sosial sistem qlobal inkişaf şəraitində ənənələrin "yeni" ilə "köhnə" arasında dialoqunun iştirakçısına çevrilir.

Milli adət-ənənələrimiz varisliyin və yeniliyin vəhdəti kimi çıxış edir, özündə ənənəvi və innovasion qatları əks etdirir. Bir tərəfdən, burada əcdadlarımız tərəfindən yaradılmış və sonrakı nəsillər tərəfindən qorunub saxlanılmış ənənəvi dəyərlər, digər tərəfdən ənənəvi dəyərlərin zamanın ruhuna uyğun dəyişdirilməsi özünü göstərir. Azərbaycan xalqının milli adət-ənənələrində köhnə və yeninin özününkü və əldə olunmuşunun qarşılıqlı təsiri bir neçə yolla həyata keçirilir: "Bir mədəniyyət elementlərinin digərinə sadə nüfuz etməsi; ənənəvi norma və adətlərə uyğun olaraq əldə edilmişlərdən istifadə və onların sintezi" [9].

Xalqımızın milli adət-ənənələrini qoruyub saxlayan, dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarını birləşdirən azərbaycançılıq ideologiyası ölkəmizdə milli vəhdətin təməlini təşkil edir". Bu mənada azərbaycançılıq, millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edir. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik

hissini yaşaması isə tolerantlığın bariz təzahürüdür" [7, 6-7]. Deməli, milli adət-ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncəmizdə başqa mədəniyyətlərə dözümlü münasibət, dini və etnik tolerantlıq ifadə olunur.

**Nəticə / *Conclusion***

Ulu Öndər Heydər Əliyev xalqları milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə olmadığını nəzərə çatdıraraq demişdir: "Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər... Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar" [2].

Deməli, milli adət-ənənələr, azərbaycançılıq bütün dünya azərbaycanlılarını birləşdirən əsas vasitələrdir.

Beləliklə, milli adət-ənənələrimiz əsrlər boyu formalaşaraq Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi və nüvəsi kimi, müasir dövrdə onun özünəməxsusluğunun göstəricisidir.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayım Evi, 2008, 92 s.
2. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. https://az.wikisource. org/wiki/
3. Kərimov M. Mustafayev R. Azərbaycan xalq fəlsəfəsinə dair. Dirçəliş-XXI əsr, 2001, №41.
4. Mehdiyev R. Dövlətçilik hissi və milli-mənəvi dəyərlər sistemi. https:/ /atelim.com/dovletcilik-hissi-ve-milli-menevi-deyerler-sistemi.html
5. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. https://www.wipo.int/edocs- /lexdocs/laws/az/az/az070az.pdf
6. Məmmədəliyeva S. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri. Bakı: Nurlar, 2006, 224 s.
7. Milli-mənəvi dəyərlərimizi qoruyaq və nəsillərə çatdıraq .Bakı,2014, 36 s.
8. Şirinov A. Sosial fəlsəfə və sosial gerçəklik. Bakı: Qanun, 2008, 340 s.
9. Chernyavskaya Y. Narodnaya kultura i natsionalnie traditsii. http://www.gumer.into bibistek. Buks/Cubture/17.htm.
10. Mamedzade I. Filosofiya o sovremennosti, istorii i kulture (o konturax istoriko-kulturnoy epistemoloqii) Baku: Elm və təhsil, 2020, 224 s


# Национальные традиции и Азербайджанская культура


**Азер Мустафаев**
Доктор философских наук , профессор, Института философии и социологии НАНА, заведущий отделения, Азербайджан.
E-mail: mustafayev.azer@gmail.com

**Резюме.** В статье с социально-философской точки зрения рассматриваются национальные традиции, как богатое культурное наследие азербайджанского народа. Отмечается, что живучесть обычаев на протяжении веков зависит от их стабильности, длительности развития и частого использования. Традиции, как и законы, появляются с течением времени и со временем сменяются новыми. Однако есть традиции, которые превращаются в классические образцы, живут и всегда проявляются в образе жизни людей. Как важная часть образа жизни, возникновение и развитие традиций и обычаев воплощает в себе социальный опыт, методы труда и навыки, передаваемые из поколения в поколение на протяжении всей истории, нормы и правила человеческого поведения в семье и быту. Автор рассматривает значение термина «традиция», которое более широко, чем понятие «обычай», исследует философскую природу этих понятий, показывает, что они являются фактором, характеризующим отношения настоящего с прошлым, их связи, сходства и различия. В статье рассматриваются традиции, как механизм сохранения и трансляции культурных ценностей, один из источников будущего состояния общества, подчеркивается универсальный характер традиций в традиционных обществах. Здесь отмечается влияние современных глобальных преобразований на наши национальные традиции, которые являются средством сохранения уникальности нашей культуры и культурного наследия.
**Ключевые слова**: обычаи, традиции, культура, национальное единство, современность, солидарность, азербайджанство.